

# Uilyam ŞEKSPİR:

Azadlıq nəhənglər və cəngavərlər yetişdirdiyi halda, qanun heç vaxt böyük şəxsiyyət yetirəmmir.

***

Bilgidən qanadlar tax – cənnətə uçmaq üçün.

***

Buz kimi saf, qar kimi təmiz ol, yenə böhtandan qurtula bilməyəcəksən.

***

Çürüyən zanbaq alaq otundan da pis qoxu verir.

***

Dərd önündə əyilsən, başından bir az da basacaq.

***

Dostluğun zəiflədiyi yerdə nəzakət qaydaları güclənir.

***

Heyvanların da təbiəti öyrədir ki, dostlarını tanıyasan.

***

Xoşbəxtliyin nə olduğun, nəhayət ki, anlamışdım, çünki sevirdim.

***

İnsanların çoxu itirməkdən qorxduğuyçün sevməkdən də qorxur. Sevilməkdən qorxur, özünü sevilməyə layiq görmədiyi üçün. Danışmaqdan qorxur, tənqiddən qorxduğu üçün. Duyğularını ifadə etməkdən qorxur, rədd edilməkdən qorxduğu üçün. Yaşlanmaqdan qorxur, gəncliyinin qiymətini bilmədiyi üçün.